**“Xalq Cəbhəsi”.-**2014.-26 aprel.-N 72.-S.13.

## Türk ordusunun azərbaycanlı generalları

### Yunan ordu generalının üzr istədiyi azərbaycanlı zabit...

**Keçmiş Sovetlər dövründə Azərbaycan xalqının heç bir sərkərdə yetişdirmək qabiliyyətinə malik olmadığı dəfələrlə müzakirə edilsə də, xalqın ziyalı və hərbiçi baxımdan kasad olduğu deyilsə də, reallıq tam başqa idi. Həqiqət bundan ibarət idi ki, Azərbaycan türklərinin hərbi məktəblərə yaxın buraxılmadığı təkcə çar Rusiyası dövründə orduda 21 azərbaycanlı general var idi.**

Azərbaycan türkləri təkcə rus ordusunda deyil, həm də Osmanlı Türkiyəsində də xidmət edirdilər. Söhbət general-polkovnik və ordu generalı, Türkiyə ordusunda xidmət etmiş, Qurtuluş Savaşının iştirakçısı, peşəkar hərbçi və diplomat, Osmanlı İmperiyası və Türkiyə Silahlı Qüvvələrinin zabiti, general-polkovnik Mehmet Nuri Bərközdən və onun kiçik qardaşı, ordu generalı Mahmud Bərközdən gedir. General qardaşların həqiqi soyadı Sarıkərimlidir. Bəzi mənbələrdə bu soyad Sarıkərimoğulları kimi də göstərilir. Türkiyənin hərbi, siyasi, diplomatik və elmi-ədəbi dairələrində daha yaxşı tanınan böyük qardaş Məhəmməd Nuru Hacı İlyas oğlu Sarıkərimli 1889-cu ildə Şəkidə doğulub. İlk təhsilini yerli "Rus-müsəlman" məktəbində və gimnaziyada alıb.

1905-ci ildə Azərbaycanın şəhər və kəndlərini çaxnaşmaya salan erməni hücumları, daşnakların törətdikləri qanlı cinayətlər ticarətlə məşğul olan Şəki sakini Hacı İlyası ailəsinin gələcəyi haqqında ciddi düşünməyə vadar edir. Beləliklə, çıxış yolunu Osmanlı imperatorluğuna köçməkdə görür.

Ailə Bursa şəhərində yerləşdikdən az sonra başçısını itirir. Ordunun verdiyi nisbətən təminatlı həyat Osmanlı məmləkətində heç bir dayağı və tanışlıq əlaqələri olmayan Məhəmmədlə kiçik qardaşı Mahmudun təhsil almaq üçün Bursa əsgəri Rüşdiyyəsini (hərbi məktəb) seçmələrinə gətirib çıxarır. Qardaşlar daha sonra təhsillərini Bursadakı İşıqlar hərbi litseyində davam etdirirlər. 1909-cu ildə İstanbuldakı Hərbi Akademiyaya daxil olan Məhəmməd Sarıkərimli üç il sonra bu ali hərbi məktəbi uğurla bitirərək Osmanlı ordusunun mülazimi-leytenant rütbəsini alır. İşıqlar hərbi litseyində və Hərbi Akademiyada xüsusi biliklərlə yanaşı, fransız dilinə və ədəbiyyatına da dərindən yiyələnir.

Azərbaycanlı zabitin gəncliyi Osmanlı imperatorluğunun süquta uğradığı, yeni Türkiyənin isə tarix səhnəsinə gəldiyi çətin və mürəkkəb dönəmə təsadüf edir. Osmanlı İmperatorluğu Birinci Dünya müharibəsinə qoşulanda gənc zabit Şərq cəbhəsinə - ölkənin Çar Rusiyası ilə sərhədlərini qoruyan İkinci Qafqaz Ordusuna göndərilir. Lakin Baş Qərargah rus və fransız dillərini mükəmməl bilməsini nəzərə alaraq Məhəmməd Sarıkərimlinin qabiliyyət və bacarığından başqa sahədə yararlanmağı məqsədəuyğun sayır. 1915-ci ildə o, xüsusi tapşırıqla Rusiyanın, Türkiyənin və Böyük Britaniyanın maraqlarının kəsişdiyi İrana - Cənubi Azərbaycana göndərilir. 1916-cı ildə isə Osmanlı hərbi missiyasının tərkibində Danimarka və İsveçə ezam edilir. Skandinaviya ölkələrində qaldığı bir ilə yaxın müddət ərzində gənc zabit İsveç dilini də öyrənməyə müvəffəq olur. Rusiyada fevral inqilabı qələbə çaldıqdan sonra gənc zabit Məhəmməd Sarıkərimli Peterburq və Moskvadakı müvəqqəti Türk hərbi missiyasının tərkibində çalışır. Onun əsas vəzifəsi Birinci Dünya müraribəsi dövründə rus ordusunun əsir aldığı türk əsgər və zabitlərinin yerinin müəyyənləşdirilməsi, rus hərbi əsirləri ilə dəyişdirilmələri və vətənə qayıdışlarının təşkili idi.

Artıq Osmanlı ordusunun yüzbaşısı-kapitan rütbəsində Sovet Rusiyasından vətənə qayıdan Məhəmməd Sarıkərimli 1919-cu ildə Baş Qərargah Akademiyasına qəbul edilir. Özündən altı yaş kiçik qardaşı Mahmud isə həmin dövrdə Hərbi Akademiyanın müdavimi idi. Parçalanma və işğal təhlükəsi ilə üzləşən Osmanlı Türkiyəsi özünün 700 illik tarixinin ən çətin dövrünü yaşayırdı. Gözlər orduya zillənmişdi. Odur ki, Mustafa Kamal Paşanın rəhbərliyi ilə İstiqlal Hərbi-Qurtuluş Savaşı başlananda hər iki qardaş təhsilini yarımçıq qoyub Anadoluya yollandı və türk torpaqlarının əsarətdən qurtarması uğrunda mübarizə aparan istiqlal mücahidlərinin sıralarına qoşulur.

İzmir uğrundakı savaşda Məhəmməd Sarıkərimli Uşak şəhərinin hərbi komendantı idi. Döyüşlərdə əsir alınmış yunan zabitləri bu şəhərdəki müvəqqəti düşərgədə saxlanırdı. Yunan ordusunun baş qərargah rəisinin müavini general Tiropis də onların arasında idi. Günlərin birində əsir zabitlərin Ankaraya piyada aparılacaqlarını öyrənən Tiropis düşərgə komendantına məktub göndərərək bu qərara etirazını bildirmiş, yunan müharibə əsirlərinə əlavə ərzaq, ayaqqabı və paltar verilməsini, onların nəqliyyatla təmin olunmasını tələb etmişdi. Vəfatından bir qədər əvvəl jurnalist İsmayıl Yağçı ilə söhbətində general Məhəmməd Sarıkərimli bu hadisənin ardını belə anlatmışdı: "Tiropisi çağırtdırdım və "Mən sizi yandırmadığınız, salamat qalmış binalarda saxlayıram. Altınızdakı yataqlar sakinlərini öldürdüyünüz evlərdən götürülüb. Bir neçə gün bundan əvvəl evlərini yandırdığınızı görən insanlar indi sizinlə necə

rəftar etməlidirlər? Ankaraya gedən dəmiryolları siz dağıtdınız. Yol yoxdur. Səkkiz yaşında uşaqlarımız belə kilometrlərlə məsafəyə bellərində mərmi daşıyırlar. Məmləkətimiz qan ağlayarkən sizə göstərdiyimiz bu iltifatı dünyanın hansı millətindən görə bilərsiniz? Keçdiyiniz yollarda salamat nə qoymusunuz ki, indi bizdən nə istəyəsiniz? Bir il bundan əvvəl zabitləriniz Uşakdan Sakarayaya qədər yürüyərək gəlmişdilər. Buralara sizi bizmi çağırdıq? Nə üzlə bizdən mərhəmət istəyirsiniz? O zaman necə gəlmişdinizsə, indi də elə gedəcəksiniz!" - dedim? Bu, həqiqətin gözünə dik baxan cəsur bir türk vətənpərvərinin mövqeyi idi. Həmin mövqeyi işğalçı yunan ordusunun generalına Azərbaycan əsilli gənc zabit çatdırmışdı. Cavab verməyə söz tapmayan general Tiropis üzr istəmiş, hər şeyi yaxşı başa düşdüyünü söyləmiş, məktubu isə zabit həmkarlarının təhriki ilə yazdığını etiraf etmişdi.

Qurtuluş Savaşı zəfərlə başa çatdıqdan sonra Məhəmməd Sarıkərimli təhsilini tamamlamaq üçün Baş Qərargah Akademiyasına qayıtmış və buranı 1925-ci ildə minbaşı-mayor rütbəsi ilə başa vurmuşdu. 1930-cu ildə o, yarbay (polkovnik-leytenant) rütbəsi almışdı. Türkiyədə 1934-cü ildə yeni soyad qanunu qəbul ediləndən sonra Sarıkərimli qardaşları özlərinə Bərköz ("Sərt", "Möhkəm" mənasında) soyadını götürmüşdülər və müasir türk hərb tarixinə müvafiq olaraq Mehmet Nuri Bərköz və Mahmud Bərköz kimi daxil oldular.

1933-cü ildə Türkiyə Cümhuriyyətinin 10 illiyi qeyd olunanda Stalinin göstərişi ilə Sovet İttifaqı marşalları K.Voroşilov və S.Budyonnı Ankaradakı təntənəli mərasimlərdə iştirak etmişdilər. Atatürk Türkiyədə qaldıqları müddətdə sovet nümayəndə heyəti ilə işləməyi polkovnik Mehmet Nuri Bərközə həvalə etmişdi. Türkiyə Cümhurbaşqanı ilə sovet marşallarının bütün rəsmi və qeyri-rəsmi söhbətlərinin tərcüməçisi də Bərköz olmuşdu. Onun hərbi-siyasi fəaliyyətinin sonrakı illərində də Sovet İttifaqı ilə əlaqələr mühüm yer tutmuşdu. Özünün yazdığına görə, həmin dövrdə Sovet ordusunun bir sıra yüksək rütbəli zabitləri ilə sıx əlaqələr və dostluq münasibətləri qura bilmişdi. Mehmet Nuri Bərköz 1939-cu ildə general-mayor (tuğgeneral), 1941-ci ildə isə general-leytenant (tümgeneral) rütbəsi almışdı. İkinci Dünya müharibəsi dövründə o, dörd il ərzində Türkiyə üçün xüsusi əhəmiyyətə malik ərazidə - Sovet İttifaqı ilə sərhəddə yerləşdirilən diviziyalar qrupunun komandanı olmuşdu. Kiçik qardaşı Mahmud Bərköz isə hərbi xidmətə bir qədər gec başlasa da, mənsəb pillələrini daha sürətlə keçmiş və türk Silahlı Qüvvələrində orgeneral - ordu generallığına qədər yüksəlmişdi. Hazırda Türkiyə ordusunun Ərzincan ərazisindəki təlim mərkəzlərindən birinin azərbaycanlı general Mahmud Bərközün adını daşıması onun türk milləti və dövləti qarşısındakı xidmətlərinin unudulmadığını göstərir.

1946-cı ildə Mehmet Bərközə general-polkovnik (korgeneral) rütbəsi verilir. 1949-cu ilin martında Azərbaycan əsilli hərbçi daha məsul vəzifəyə irəli çəkilir. Mehmet Nuri Bərköz Türkiyə Jandarmeriyasının baş komandanı olur. Lakin növbəti il Türkiyənin siyasi Olimpində baş verən dəyişiklik Bərköz qardaşlarının hər ikisinin uğurlu karyerasının yarıda qırılmasına səbəb olmuşdu.

1950-ci ilin iyununda Türkiyədə mülki şəxslər orduya qarşı çevriliş planını həyata keçirdilər. Bir günün içərisində Türkiyə Silahlı Qüvvələrinin 15 generalı və 150-dən çox polkovniki istefaya göndərildi. Onların arasında general-polkovnik Mehmet Nuri Bərköz və onun qardaşı, general Mahmut Bərköz də var idi. Doğrudur, 1950-ci il iyunun 6-da Üçüncü Ordu komandanlığından uzaqlaşdırılan kiçik qardaş - Mahmud Bərköz daha məsul vəzifəyə irəli çəkilmiş, bir həftə sonra, iyunun 13-də Milli Güvənlik Konseyinin - Milli Təhlükəsizlik Şurasının baş katibi təyin edilmişdi. Lakin növbəti ilin sentyabrında o, ikinci dəfə və artıq həmişəlik istefaya göndərilmişdi. Sonradan, sakitcə vəzifələrindən uzaqlaşdırılan bu yüksək rütbəli hərbçilərə qarşı irəli sürülən ittihamların əsassızlığı ortaya çıxdı.

General-polkovnik Mehmet Nuri Berköz 1975-ci il yanvarın 18-də, 86 yaşında İstanbulda vəfat edir. Türkiyə mediası bu xəbəri "Qurtuluş Savaşı komutanlarından general Nuri Berköz öldü!" manşeti ilə vermişdilər. O, Türkiyə Cümhuriyyətinin ali hərbi mükafatı olan "İstiklal madalyası" və digər orden-medallarla təltif edilmişdi. İki qardaşı fərqləndirən başlıca cəhət Mahmud Bərközün sırf hərbçi olması, Mehmet Nuri Bərközün isə daha geniş və çoxçeşidli fəaliyyət sahəsi ilə tanınmasıdır. Mənbələrdə onun hərb taktikasına və tarixinə dair bir sıra kitabları rus dilindən türkcəyə çevirdiyi, eyni zamanda hərbi, siyasi və strateji məsələlərlə bağlı çoxsaylı məqalələrin müəllifi olduğu göstərilir.

Müasir Türkiyənin qurucusu Kamal Atatürk Mehmet Nuri Bərközü yaxşı tanıyırdı, dəfələrlə şəxsi etimadını nümayiş etdirmişdi. Onun Ankaraya gələn sovet heyətlərini müşayiət etməsi, Atatürkün qeyri-rəsmi rus dili tərcüməçisi olması, sonralar isə Moskvada Türkiyənin hərbi müşaviri vəzifəsini tutması Bərközün SSRİ ilə hərbi və təhlükəsizlik sahəsində əməkdaşlıqda Qazinin inandığı simalardan biri olduğunu söyləməyə əsas verir. Maraqlıdır ki, çağdaş türk yazıçısı Turqut Özarmanın "Şu çılğın türklər" romanında İzmir uğrunda həlledici savaş ərəfəsində Qazi Mustafa Kamalın yaxın çevrəsində olan vətənpərvər gənc hərbçilər sırasında "Yüzbaşı Mehmet Nuri"nin də surəti yaradılmışdır.

**Ülviyyə Tahirqızı**